COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda uğurla keçirilməsi və müzakirə edilən aktual məsələlərin həlli üçün konkret qərarların qəbul olunması beynəlxalq ictimaiyyət tərəfindən razılıq hissi ilə qarşılanıb və geniş rezonans doğurub.

COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.

Cari il noyabrın 11-23-də Bakıda keçirilən COP29-un yekun iclasında mühüm qərarlar qəbul olundu.

Dünyada iqtisadi və sosial inkişafa böyük töhfə

AMEA-nın Şəki REM-in baş elmi işçisi, ADPU-nun Şəki filialının professoru, pedaqoji elmlər doktoru Firədun İbrahimov söhbətində bildirdi ki, COP29 konfransına ev sahibliyi ölkəmiz üçün 2024-cü ilin ən mühüm hadisəsi oldu. Bakıdan dünyaya, bəşəriyyətə insanlığın, yaşamaq haqqı olan varlıqların amansız və cavabsız suallardan yan keçməsi məqsədli çağırış edildi. Təkzibedilməz həqiqətdir ki, iqlimin dəyişməsi planetimizin hər bir sakininə - torpaqdan, bitkidən tutmuş canlı aləmin hər bir üzvünə toxunan məsələdir.

Qlobal iqlim konfransının Bakıdan dünyaya çağırış ünvanlaması Azərbaycanın qlobal miqyasda sözükeçən bir ölkəyə çevrilməsinin bariz nümunəsidir. Bu fakt ölkəmizin beynəlxalq uğurudur. Ədalət naminə hesab edirəm ki, bu tədbirin Bakıda keçirilməsi Prezident İlham Əliyevin Azərbaycanın beynəlxalq ictimaiyyətdə sanballı statusu olan ölkə halına gəlməsi üçün sərf etdiyi xüsusi əməyin nəticəsidir.

Azərbaycanda reallaşan COP29 öz məqsədinə yüksək səviyyədə nail oldu. Rəsmi Bakının səyləri təxribat kampaniyalarını neytrallaşdırdı. Tədbir qurucu xarakter daşıdı və gözlənilən faydalı anlaşmalar ilə irəliyə doğru atılmış addımlar kimi dəyərləndirilməlidir. Bir daha sübuta yetirildi ki, Azərbaycan nəinki Cənubi Qafqazda, eləcə də dünya miqyasında sözükeçən dövlətdir. Bu isə ölkəmizə parlaq perspektiv, müsbət gözləntilər vəd edir. Nə xoşdur ki, neft-qaz və yanacaq istehsalçısı olan Azərbaycan iqlim konfransına ev sahibliyi təşəbbüsünü fürsətə çevirdi, Prezident İlham Əliyev ölkənin beynəlxalq nüfuzunu artırmaq məqsədini real müstəviyə daşıdı. Belə də olmalı idi və oldu!

Tədbirin müdrik ssenari üzrə reallaşdırılması sayəsində aydın oldu ki, Azərbaycanın dövlət siyasəti beynəlxalq normalara uyğundur, onun barəsində səsləndirilən bütün mənfi fikirlər, qəbul edilən qətnamələr qarayaxmalardır və iyrənc məqsədlərə xidmət edir. Azərbaycanda günəş, külək, məişət tullantılarından elektrik enerjisi hasil edilir, həmin istiqamətlər üzrə müvafiq qaydada maliyyə vəsaitləri yönəldilir, hər hansı bir ölkədən neft və ya qaz alınaraq başqa ölkələrə satılmır. Ölkəmiz Avropa ölkələrinə qazı yalnız onların istəyinə, sifarişinə, qaçılmaz tələbatına adekvat şəkildə nəql edir. Suveren ölkə kimi Azərbaycan müstəqil və tərəfdaş funksiyalı beynəlxalq, sülhsevər siyasət yeridir, digər ölkələrin sərvətini talamaq fikrində deyildir, onların suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşır, ədavəti, dini və irqi ayrılıq salanları qınayır, heç bir ölkənin daxili işinə qarışmır, müstəmləkəçiliyi yolverilməz cinayət adlandırır, bərabər tərəfdaşlığa hörmət edir, birgəyaşayış normalarının gözlənilməsini insanlığın ali qanunu hesab edir.

İnanıram ki, COP29 Azərbaycanda keçirilməklə ölkə iqtisadiyyatına da bir çox istiqamətlər üzrə öz müsbət töhfəsini verəcək. Məxsusi olaraq vurğulamaq istərdim ki, ölkənin üçüncü enerji strategiyası olan alternativ enerji, yəni "yaşıl enerji" strategiyasının uğurla həyata keçirilməsi onun davam etdirilməsinə, dayanıqlı formada saxlanılmasına imkan yaradacaqdır.

AMEA-nın Şəki Regional Elmi Mərkəzinin Landşaftşünaslıq şöbəsinin elmi işçisi Murad Qəhrəmanov qeyd etdi ki, qlobal iqlim dəyişmələri ilə mübarizənin ən böyük tədbirlərindən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) yeni strategiya və qərarların qəbul edildiyi mühüm platformadır.

İqlim Dəyişmələri üzrə Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan paytaxtında keçirilməsi, hökumət və vətəndaş cəmiyyətləri nümayəndələri, elm adamları və ekspertlərin Bakıda toplaşaraq iqlim böhranının həlli yollarını müzakirə etməsi isə həm ölkəmiz, həm region, həm də ümumilikdə dünya üçün əhəmiyyətli nəticələr vəd edir.

COP29 Azərbaycanın ekoloji gələcəyinə, iqtisadi inkişafına və beynəlxalq nüfuzunun artmasına mühüm dərəcədə töhfə verəcəkdir. Bu konfrans "yaşıl enerji" strategiyalarının, ekoloji layihələrin və təmiz texnologiyaların tətbiqini sürətləndirmək baxımından tarixi əhəmiyyət kəsb edir.

Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə geniş təcrübəyə malik olan Azərbaycanın bütün neqativ fikirlərə və qərəzli çağırışlara baxmayaraq, dünyanın hər yerindən on minlərlə insanın iştirakı ilə, təhlükəsiz şəraitdə və yüksək səviyyədə mötəbər COP29 konfransını təşkil etməsi ölkəmiz üçün böyük uğurdur.

Əlbəttə, bu uğurun da arxasında ölkəmizin başçısı cənab İlham Əliyev və Azərbaycan xalqı dayanır.

COP29-dan sonra Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı, Bakıda "yaşıl gələcək" qurmaq məqsədlərinə töhfə verməklə yanaşı, ekoloji sahədə həm texniki, həm də maliyyə dəstəyinin güclənməsi qərara alındı. Həm də iqtisadi və sosial sahələrdə tətbiq olunacaq yeniliklərin ümumi və dayanıqlı inkişafa, vətəndaşların rifahının yaxşılaşmasına müsbət təsir edəcəyini proqnozlaşdırmaq olar.

Mikayıl NƏRİMANOĞLU,
"Respublika".